ədalət 2019.- 27 avqust.- S.6.

# Söz hikmətindən, ana sevgisindən doğan nəğmələrə...

## ... Oradan da, haqqa çağıran səsə - ruhun beşiyinə



*Qurban Bayramov,*
*tənqidçi-ədəbiyyatşünas,*
*doktor-professor*

**(əvvəli ötən saylarımızda)**

***III məqalə***

Mahirə xanımın bütün yaradıcılığının estetik yükü və gücü, kredosu onun bir şair kimi həmişə həyat həqiqətinin yanında olmaq istəyi və bacarığıdır. Bu onun üçün insanlığın əxlaqi-mənəvi dəyər səviyyəsində ən böyük sifətidir, mahiyyətidir. Ümumiyyətlə, qeyd etməliyik ki, onun lirikasında mənəvi məsələlərin axtarışı heç də fraqmentar xarakter daşımır. Problem özünün ardıcıllığı, davamlılığı ilə diqqət mərkəzinə düşür. Bütün situasiyalarda həqiqət nədirsə onun yanında olmaq, onun tərəfini saxlamaq, həqiqəti məhəbbət kimi tərənnüm etmək...

**Haraya getsəm də, Vətən, ay Vətən,**
**Könlümdə ruhunun var, havası var.**
**Ayrılıqdı bilməm, xiffətdi -bilməm,**
**Sənsiz hər tərəfdə qar havası var.**

**...Köksündə dondurmaz ayazı qışın,**
**İstisi bəsimdi bircə qarışın.**
**Qürbətdə küləyin, yağan yağışın,**
**Səsində bir ahu-zar havası var.**

Bütün bu "qar havasına" mübtəla olmuş lirizm axını sonda məhəbbətə - "yar havası"na çevrilir və gerçəklik öz yuvasını tapmış olur, ictimai funksiya fərdi istək funksiyasına çevrilərək həqiqətə münasibəti məhəbbətə çevirir...

"Şəhid nəğməsİ", "Son döyüşə hazır ol", "Al bayrağım", "Xocalı üçün elegiya" və s. bu sıradan olan şeirləri həqiqət sıldırımlarından qopan poetik qəlpələrdir... Mahirə Nağıqızı intervülərinin birində jurnalistin: "Bəzən yaşadıqlarımızı göstərmək üçün mübaliğələr belə acizdir. Bəs haqqın tərəzisi?! Görə-görə kor olmaq olurmu?" - sualına belə cavab verir: "- Hə, bu, xəyalən min dəfələrlə olduğum, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalısının- özü elə böyük olamayan bir qəsəbənin dünya boyda dəhşət mənzərəsidir... O mənzərədə insanlığını itirən kəsin ən vəhşi heyvandan belə amansız olduğunu görmək olar O mənzərənin vəhşəti insanın qəlbində Allahın özünə belə etiraz nidaları yaradır. Yox, söhbət ancaq ondan getmir ki, bu amansız cinayəti törədən erməni millətindən olan qatillərə qərinələrlə bir millətə-türklərə qarşı aşılanmış nifrət hissi impuls verib Söhbət ondan gedir ki, həmin gecə ancaq azərbaycanlı olduqlarına görə amansızlıqla öldürülən, içərisində körpələrin və qadınların da olduğu 613 nəfərin qanı laxtalanmayıb... Şəxsən mən hesab edirəm ki, o Qan təkcə onu tökənlərin deyil, bu mənzərəyə laqeyd qalanların da vicdanındadır və Xocalı ədaləti bərqərar olmayınca o qan laxtalanmayacaq." Və biz "Xocalı üçün elegiya" şeirini oxuyanda onun - şairin həmişə "haqqın tərəzisinin" yanında yana-yana olduğu aşkar görsənir:

**26 fevralda**
**Zamanı mat qoydular.**
**İblis xislətli kəslər**
**İnsan donundaydılar.**

**Dünyaya göstərdilər,**
**Vəhşi nə təhər olur,**
**İnsan vəhşi olanda,**
**Vəhşidən betər olur.**

**O gecə Xocalıda**
**Daş-divar güllələndi,**
**adamlar güllələndi,**
**ağaclar güllələndi.**

**Erməni-rus tankları,**
**Nə var tırtılnan əzdi.**
**Qanla qan suvarıldı,**
**Qanla ayaz ölezdi.**

**Anaların fəryadı,**
**Diksindirdi tanrını.**
**Qan donmağa qoymadı**
**Uşaq ayaqlarını.**

**Süngüyə keçən başlar,**
**Düşmən üçün dəf oldu.**
**Qoca, qadın, körpələr,**
**Hamısı hədəf oldu.**

**Dinc, silahsız adamlar**
**Ölümnən baş-başaydı.**
**Xocalıda olanlar**
**Əzablı tamaşaydı.**

Bu "əzablı tamaşa" millət üçün, xalq üçün mənəviyyat, əxlaq, kişilik, mərdlik tamaşasıdır, tarixi dərslikdir, bütöv millətin şəhidlik zirvəsidir və bu zirvədə minor ladda söz notunda "Şəhid nəğməsi" bəstələnir:



**Millətin qoludur- daş atmaq üçün,**
**Ürəyi qorxudan boşaltmaq üçün.**
**Ölərlər Vətəni yaşatmaq üçün,**
**Hər qəlbdə bir qala tikər şəhidlər.**

**Analar ər doğar,oğul böyüdər,**
**Hər oğul dünyası - nağıl, böyüdər.**
**Vətəni qaldırar göylərə qədər,**
**Düşmənin qəddini bükər şəhidlər.**

**Səngəri ev bilib ağ ban eyləyər,**
**Bağ qurar, ömrünü bağban eyləyər.**
**Canını Vətənə qurban eyləyər,**
**Qanını xalq üçün tökər şəhidlər.**

**Özü qocalmaz ki, əsri qocaldar,**
**Gələcək - gedəcək nəsli qocaldar.**
**Hər qəlbdə bir uca bayraq ucaldar,**
**Azadlıq ağacı əkər şəhidlər...**

Mahirə Nağıqızı adi həyat hadisələrini, ən sadə həqiqətləri - həyat, ölüm, sevgi, Allah, Dünya və İnsan haqqında duyğularını poeziya dili ilə, özü də orjinal şəkildə ifadə edir. Amma burada duyğular və hisslərlə yanaşı, bir mühüm məqamı da vurğulamalıyıq - Mahirənin şeiri həm də bizə məlum, adi həqiqətlərin nisbətən yeni izahıdır, yeni yöndən dərkidir, "Leysan yağışı" şeirində olduğu təkin:

**Dünya toz-torpaqnan dolu,**
**Çarəm, yağ, leysan yağışı.**
**Sinəmi yolların boyu,**
**Sərəm, yağ, leysan yağışı.**

**Yer fanidi, göy əbədi,**
**Göy ömrü yerin mabədi.**
**Yetirə bizlərə ümidi,**
**Kərəm, yağ, leysan yağışı.**

**Göylərə əl qaldıran biz,**
**Haqqa inamdı çarəmiz.**
**Gəl elə yeri tərtəmiz,**
**Görəm, yağ, leysan yağışı.**

**Yağ vüsala yetirməyə,**
**Eşq ağacın bitirməyə,**
**Nə yağıb yer götürməyə,**
**Yerəm, yağ, leysan yağışı.**

**Bacarmadım göyə çıxam,**
**Buludun gözünmü, sıxam,**
**Səninlə dənizə axam,**
**Kürəm, yağ, leysan yağışı.**

**Tanrı tək - işıq yoludu,**
**Mahirə onun quludu.**
**Sinənmi söznən doludu,**
**Dillən, yağ , leysan yağışı!**

Bədii ədəbiyyatın insan əzəməti və ləyaqəti haqqında yaratdığı ən böyük psixoloji himn məhəbbət himnidir. Məhəbbət əsil insan xoşbəxtliyinin meyarıdır. Məhəbbətin sonucu iki "Mən"in vahidləşərək "BİZ"ə çevrilməsi hadisəsi olmasıdır. Amma həmişə belə olurmu? Ədəbiyyat, xüsusən də poeziya ta əzəldən bunun axtarışındadır və bütün insani faciələr, bədii konfliktlər bu struktur üzərində, bu bünövrə üzərində qurulur...

Şərq məhəbbət fəlsəfəsində dərd həmişə öndədir... Facəvilik, Məcnunluq, Fərhad itgisi aparıcı motivdir və bu gün də poeziyamızda bunun dərin izləri davam etməkdədir. Mahirə xanım məhəbbət mövzuzuna tamamilə başqa bir rakursdan yanaşır. Sevgi, məhəbbət həmişə dərd gətirmir! Sevən insanın qəlbi genişlənir, ruhu təzələnir, bütün dünya gözündə məhəbbətə, sevgiyə bürünür, "Dünyanın boz üzü bəmbəyaz" olur, "Hər tərəf laləli düzə" dönür "Səni sevəndən" şeiri dediyimizə bariz nümunədir və şerin tamlığına xələl gəlməsin deyə, onu tam şəkildə də təqdim edirik:

**Mən səni sevəndən**
**dünya dəyişib.**
**Bir az duzu artıb**
**tamı dəyişib.**
**Mən səni sevəndən**
**ulduzlar artıb**
**Daha gizlənmir ay**
**qaçır buluddan.**
**Bir ılıq istilik verir**
**günəş də...**
**Mən səni sevəndən**
**aləm dəyişib.**
**Sanki yox olubdu**
**eniş-yoxuşlar**
**Elə bil hər tərəf**
**laləli düzdü.**
**Ruhum qol götürüb**
**süzdükcə süzdü...**
**Mən səni sevəndən**
**Mən səni sevəndən**
**dağlar ucalıb**
**Elə bil qarıyıb**
**Şeytan qocalıb.**
**Dünyanın boz üzü**
**olub bəmbəyaz.**
**Mən səni sevəndən**
**Açılıb dilim**
**Elə xoş keçir ki,**
**hər ayım, ilim.**
**Mən səni sevəndən**
**Eh nələr...nələr...**

Məlumdur ki, məhəbbət mövzusu poeziyada rəngarəng, ağılagəlməz çalarlarda duyğu və hisslər sistemi yaradır Belə bir cəhət Mahirə Nağıqızının lirik yaradıcılığında da təbii axarında üzə çıxır...

Məhəbbət, sevgi, eşq barəsində onun duyğuları, özünün dediyi kim, təxminən belədir - XIX əsrdə və sonra yaşamış qüdrətli fikir adamlarının "romantik dövrün sonuncu şairi" adlandırdıqları Heyne sevgi haqqında: "Mələklər bunu ilahi zövq, şeytanlar cəhənnəm əzabı, insanlar isə sevgi adlandırırlar, - deyirdi. Bu məqamda insan obrazında Allahın özünü axtaran böyük, əvəzedilməz Nəsimini, prozanın qrafı Lev Tolustoyun "Sevgi qiyməti olmayan elə paydır ki, biz onu hədiyyə versək belə, özümüzə qayıdır" fikrini, 2500 il bundan əqdəm yaşayan, "yüz min nəslin atası" kimi çağırılan və bu adı saxlayan Konfutsenin isə "sevgi bizim başlanğıcımız və sonumuz" deyimini, bütün bu deyimlərin yekunu kimi böyük, ulu və möhtəşəm Füzuli babamızın: "Ya Rəbb, bəlayi- eşq ilə qıl aşina məni!"- ilahi duasını xatırlayanda biz adi insanların təsəvvüründəki eşq duyğusunun miqyası təsəvvürə gələr... Amma istənilən bucaqdan baxsaq sevgi insanın ən ali duyğusu kimi saflığa, bitginliyə, cəfaya və səfaya çağrış impulsudur:

**Hər çəmən çiçəyi süsən ha deyil,**
**Taparsan, səbrini kəsən ha deyil**
**Mahirə öyrənib, küsən ha deyil**
**Bilir ki, qəlbini ovudacaq var**

Bu cür impulsdan bəhrələnən Mahirə Nağıqızı "Bu dünya", "Özümə məktub", "Sevginin mənzili", "Qayada bitən çiçək", "Durnam", "Dünya" - silsiləsindən olan şeirlər, "Gözlərin balladası", "Payız yağışı", "Yarpaq-yarpaq", "Dənizə bənzər adam" və s. bu təkin şerlərində müasir insanın, təbii ki, həm də özünün sevgi və məhəbbətini tərənnüm edir. "Söyləmə" şeiri bu lirik qəhrəmanın məhəbbət, sevgi iztirablarının təsirli ovqatını dürüst ifadə edir:

**Bir dəli eşq məni çöllərə salıb,**
**Suları qurumuş göllərə salıb,**
**İnsaf et, görürsən dillərə salıb,**
**Dözüm də gözləmə, döz də gözləmə.**

**Mahirənin ürəyində dərd gəzər,**
**Qanadı qırılmış bülbülə bənzər,**
**Deyirsən dayanar, deyirsən dözər,**
**Dözüm də gözləmə, döz də gözləmə!**
**Sən Allah, sən mənə döz də - söyləmə!**

Bu cür ülvi, təmiz hissilər axarı mənsəbdə lirik qəhrəmanı Tanrı məhəbbətinə qovuşdurur və bu mistika kimi qarşılanmır, inandırır, ovundurur:

**Mahirəni hara çəksən,**
**Yara üstə yara çəksən,**
**Yüz dəfə də dara çəksən,**
**Sənsən istədiyim, Tanrı!!**

**(ardı var)**